# Qarabağ Universitetində vakansiya – İctimaiyyətlə əlaqələr şöbəsinin müdiri

**İşəgötürən:** "Qarabağ Universiteti" publik hüquqi şəxs

İşğaldan azad edilmiş ərazilərin iqtisadi potensialı, aparılan bərpa-quruculuq işləri, eləcə də əmək bazarının tələbləri nəzərə alınaraq regionun sosial-iqtisadi ehtiyaclarına uyğun yüksəkixtisaslı kadr tələbatının ödənilməsi məqsədilə Azərbaycan Respublikası Prezidentinin 2023-cü il 28 noyabr tarixli Sərəncamı ilə Qarabağ Universiteti yaradılıb.

Universitet Xankəndi şəhərində fəaliyyət göstərəcək.

Azərbaycan Respublikası Nazirlər Kabinetinin 6 fevral 2024-cü il tarixli 73 nömrəli Qərarı ilə təsdiq olunmuş "Qarabağ Universitetinin Nizamnaməsi"nə əsasən, ali təhsilin bütün səviyyələri üzrə genişprofilli mütəxəssis və yüksəkixtisaslı elmi kadrların hazırlanması, eləcə də orta ixtisas və əlavə təhsil proqramlarının həyata keçirilməsi, elmin müxtəlif sahələri ilə bağlı tədqiqatların aparılması universitetin fəaliyyət istiqamətlərinə daxil edilib.

Qarabağ Universiteti fəaliyyətinin beynəlxalq standartlara uyğun təşkili, eləcə də təhsilalanların yüksəksəviyyəli bilik və bacarıqlarla təmin olunması məqsədilə yüksəkixtisaslı peşəkar kadrlar üçün vakansiya elan edir.

İctimaiyyətlə əlaqələr şöbəsinin məqsədi universitetin ictimai nüfuzunu yüksəltmək, universitetdə tədris prosesinin, həyata keçirilən elmi, mədəni, idman və digər kütləvi tədbirlərin işıqlandırılması yolu ilə onun missiya və dəyərlərini geniş ictimaiyyətə, media qurumları, həmçinin digər tərəfdaşlara effektiv şəkildə çatdırmaqdır.

**Vəzifə:** İctimaiyyətlə əlaqələr şöbəsinin müdiri

**İşin təsviri:**

- universitetin ictimai nüfuzunun artırılması üçün onun missiya və strateji məqsədlərinə uyğun proqramların hazırlanması və həyata keçirilməsi;
- şöbənin fəaliyyətinin planlaşdırılması, təşkili və nəzarət edilməsi;
- universitetin fəaliyyət və səlahiyyətlərinə aid olan məsələlərlə bağlı rəsmi mövqeyinin ictimaiyyətə açıqlanması, həmçinin mətbuat konfransları, brifinqlər və digər tədbirlərin təşkili, bölgələrə və xarici ölkələrə gedən rəsmi nümayəndə heyətinin müşayiət olunması;
- media, dövlət qurumları və tərəfdaşlarla əlaqələrin qurulması;
- böhran vəziyyətində kommunikasiyanın təşkili, həssas və ya mübahisəli məsələlərin danışıqlarla idarə olunması;
- universitet işçilərinin böhran kommunikasiyası strategiyaları üzrə təlimatlandırılması;
- press-relizlər, xəbər bülletenləri, illik hesabatlar daxil olmaqla

materialların yaradılması və yayılmasına nəzarət edilməsi;
- mediada işıqlandırma və PR kampaniyalarının effektivliyinin yoxlanılması, PR fəaliyyətlərinin nəticələrinə dair rəhbərliyin məlumatlandırılması.

**Tələblər:**
- ictimaiyyətlə əlaqələr, jurnalistika, marketinq və ya müvafiq sahə üzrə magistr elmi-ixtisas dərəcəsi;
- ictimaiyyətlə əlaqələr və ya kommunikasiya sahəsində minimum 5 il, idarəetmə ilə bağlı minimum 2 il təcrübə (sözügedən təcrübənin ali təhsil müəssisələrində olması üstünlükdür);
- uğurlu PR kampaniyalarının hazırlanması və həyata keçirilməsi üzrə təcrübə;
- Azərbaycan və ingilis dillərində yüksək səviyyədə ünsiyyət bacarığı;
- rəqəmsal kommunikasiya alətləri və platformalarından istifadə bacarığı;
- liderlik və idarəetmə bacarığı;
- qərar qəbuletmə və problem həlletmə bacarığı;
- stresədavamlılıq;
- böhran kommunikasiyasının idarə olunmasına dair təcrübə;
- tədqiqat və analitik təhlil bacarığı.

**Tələb olunan sənədlər:**
- tərcümeyi-hal;
- CV;
- ali təhsili təsdiq edən sənədlərin surəti;
- Azərbaycan dilində müşayiətedici məktub (motivasiya, şöbənin fəaliyyəti ilə bağlı baxış – maksimum 500 söz);
- tövsiyə edən şəxslər barədə məlumat (2 nəfər).

*Qeyd: universitetdə daimi əsaslarla çalışan əməkdaşlar Xankəndi şəhərində tədris ilinin əvvəlindən başlayaraq işlədikləri müddətdə mənzillə təmin olunacaqlar.*

**Rəqabətədavamlı əməkhaqqı təklif olunur.**

**Müraciət üçün son tarix: 31 may 2024-cü il**

*Müraciət üçün qeyd edilən tarixədək lazımi sənədləri* ***karabakh@edu.gov.az*** *elektron poçt ünvanına başlıqda "İctimaiyyətlə əlaqələr şöbəsinin müdiri" yazmaqla göndərməyiniz xahiş olunur.*